# İlham Əliyev Türkiyəni ağır günlərində tək qoymadı

## Türk siyasətçilərinin "böyük dostluq jesti" kimi qiymətləndirdiyi səfər medianın da xüsusi diqqət mərkəzində oldu:

## "Təşəkkürlər, can Azərbaycan!"





































İllər keçdikcə daha da möhkəmlənən, zamanın ağır sınaqlarından qətiyyətlə, mərdliklə çıxan Azərbaycan-Türikyə münasibətləri artıq tarixin şahidlik etdiyi ən nümunəvi və sarsılmaz birlik kimi də dəyərləndirilir.

Bütün bunlar bir daha Azərbaycanla Türkiyə arasında münasibətlərin nə dərəcədə yüksək səviyyədə qurulduğunu, tərəflərin mühüm əhəmiyyət kəsb edən maraqlar ətrafında hər zaman biri-birini müdafiə etməyə hazır olduğunu da aydın göstərir. Möhkəm özüllər üzərində bərqərar olan əlaqələrin əsasında dostluq, qardaşlıq münasibətləri ilə bahəm, xalqların birliyi amili dayanır.

Ümumiyyətlə, Türkiyə və Azərbaycan daim ən çətin anlarda da bir-birlərinin yanında olub, bir-birlərinə əməli dəstəklərini ifadə ediblər. Qardaş ölkəyə qarşı xain terror hücumlarının artdığı bir vaxtda Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə səfəri növbəti dəfə iki dövlət, iki xalq arasında dostluğun, qardaşlığın, strateji tərəfdaşlığın möhkəm təməllər üzərində bərqərar olduğunun daha bir təsdiqi oldu.

Türkiyə ictimaiyyəti, siyasətçilər, media orqanları Azərbaycanın dövlət başçısının bu addımını çox yüksək qiymətləndirdilər. Elə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da iki ölkə arasındakı münasibətlərin yüksək səviyyədə olmasını diqqətə çatdırmaqla bərabər, Prezident İlham Əliyevin Ankaraya səfərinin çox böyük məna daşıdığını xüsusi qeyd etdi: *"Mən bu səfəri, bu gün burada Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasını həm bu hadisə ilə bağlı birlikdə gücümüzü, həmrəyliyimizi, həm də bütün terror hücumlarına qarşı birlikdə olduğumuzu milli və beynəlxalq miqyasda göstərmək baxımından çox yüksək qiymətləndirirəm. Mən Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının bu iclasının Ankaramızda keçirilməsini çox təqdirəlayiq hesab edirəm və mərhum Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" anlayışının daha bir təzahürü olduğunu bildirirəm. Qardaşım İlham Əliyev Azərbaycanın millətimizin dar günündə dostu olduğunu bir daha göstərdi. Buna görə ona dərindən təşəkkürümü bildirirəm".*

Yeri gəlmişkən, səfər zamanı edilən çıxışlar və imzalanan sənədlər dövlətlərimizin, xalqlarımızın həm çətin, həm də uğurlu məqamlarda həmişə bir yerdə olduqlarını, bundan sonra da bir yerdə olacaqlarını bütün dünyaya nümayiş etdirdi.

Türkiyə ictimaiyyəti də Prezident İlham Əliyevin Ankaraya səfərini yüksək qiymətləndiriblər. Onların ümumi yanaşmasını isə aşağıdakı kimi dəyərləndirmək olar: "Azərbaycan əsl qardaş və dostdur", "Bu ağır günlərdə bizi tək qoymayanlar əsl dostdur. Təşəkkürlər, can Azərbaycan!", "Türkiyəni həmişə dəstəkləyən yeganə ölkə Azərbaycandır", "Azərbaycan Türkiyəyə qarşı qardaşlıq münasibətini bütün dünyaya sübut etdi", "Terror aktlarından sonra bütün dünya Fransanı dəstəkləyəndə, Türkiyəni yalnız Azərbaycan dəstəklədi və bu, əsl qardaşlıq münasibətidir".

Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının sədr müavini, millət vəkili Ömər Çelik Azərbaycana belə təşəkkür edib: "Can Azərbaycan həmişə qəlbimizdədir. Bu çətin günlərdə qardaşlıqlarını heç vaxt unutmayacağıq. Çox yaşa, Azərbaycan".

Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu Prezident İlham Əliyevin Ankaraya səfəri barədə deyib: "Bir millət, iki dövlət" təkcə şüar deyil. Türk və Azərbaycan xalqlarının ortaq duyğularını əks etdirən əbədi irsdir".

Türkiyə Böyük Millət Məclisinin deputatı, Cümhuriyyət Xalq Partiyasının keçmiş sədri Dəniz Baykal da Prezident İlham Əliyevin Ankara səfərinin Türkiyə üçün mühüm əhəmiyyət daşıdığını bildirib: "Azərbaycan Prezidenti ən çətin günlərində Türkiyənin yanında oldu. O, bizi tək qoymadı. Bu, dünya üçün ciddi mesajdır. Prezident İlham Əliyev rəsmi protokolları bir kənara qoyaraq, Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının V iclasının Ankarada keçirilməsi ilə bağlı qərar qəbul etməklə iki ölkə arasında dostluq, qardaşlıq münasibətlərini dünyaya nümayiş etdirdi. Ankarada baş tutan görüş Türkiyəyə sevinc yaşatdı. İlham Əliyev bu addımı ilə Türkiyənin tək olmadığını nümayiş etdirdi. Biz bununla fəxr edirik. Əsl dostluq budur. Bütün dünya görsün ki, Azərbaycan-Türkiyə dostluğu sarsılmaz və əbədidir".

Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının tanınmış simalarından olan İsa Yaşar Tezel isə vurğulayıb ki, cənab İlham Əliyevin bu jesti heç vaxt unudulmayacaq: "Türk dövlətinin və millətinin buna ehtiyacı var. Azərbaycan dövlətinin ən ağır günlərimizdə bizim yanımızda olması türk millətini çox şad edəcək və bəzi qonşu dövlətlərə də mesaj olacaq. Azərbaycan Prezidentinin bu gözəl jestini dövlətimiz və millətimiz heç bir zaman unutmayacaq".

"Aktif" nəşriyyatının rəhbəri Cəlil Altuntaş isə bildirib ki, Prezident İlham Əliyev hər zamankı kimi Türkiyədə böyük bir sevgi ilə qarşılandı: "Türkiyə Azərbaycan Prezidentinin prinsipial məqamlarda etdiklərini heç zaman unutmayacaq. Ankaradakı terror aktı ilə əlaqədar Prezident Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfərlərinin təxirə salınması bizi çox məyus edirdi. Məhz belə bir məqamda Prezident İlham Əliyevin Türkiyəyə səfər etməsindən qürur duydum. Bu, ölkələrimizin, xalqlarımızın birliyinin, qardaşlığının bariz nümunəsidir".

Işık Universitetindən Qamze Güngörmüş Konanın fikrincə, bu səfər həm də Azərbaycan Prezidenti Əliyev tərəfindən Türkiyəyə verilən açıq dəstəkdir.

Türkiyə mediası da Prezident İlham Əliyevin bu səfərinə geniş yer ayırıb. Məsələn, "Milliyet" qəzeti yazır: "Ankaradakı terror hücumunun ardından Prezident İlham Əliyevin Türkiyəyə gəlməklə etdiyi jesti və Ankarada baş tutan görüşlər terrorla mübarizənin qətiyyətlə davam edəcəyinə dair də mesaj oldu. İki lider mətbuata bəyanatlarında açıq mesajlar da verdilər".

Səfərlə bağlı "CNN Türk" "Prezident Ərdoğan Əliyevlə birgə mətbuat konfransında" başlıqda material dərc edib. Eyni zamanda, "Ərdoğan təxirə salacaqdı, Əliyev "Mən gəlim" dedi", "Prezident Ərdoğan və Əliyevdən əhəmiyyətli açıqlamalar", "Əliyev və Ərdoğandan TANAP müjdəsi" və s. başlıqlı məqalələr yayımlanıb.

Qardaş ölkənin ən nüfuzlu qəzetlərindən biri olan "Akşam" isə "Qardaş ölkədən böyük jest!" başlığı ilə material yayımlayıb. "Qardaş ölkə Azərbaycandan dünyaya nümunə ola biləcək dəstək. Ankaradakı terror hücumundan sonra iki ölkənin Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının V iclası Bakı əvəzinə Ankarada keçirildi" - deyə məqalədə qeyd olunub.

"Türkiyə Gazetesi"ndə də səfər geniş işıqlandırılıb. Burada "Ərdoğan təxirə salacaqdı, Əliyev "Mən gəlim" dedi", "Prezident Ərdoğan və Əliyevdən əhəmiyyətli açıqlamalar", "Əliyev və Ərdoğandan TANAP müjdəsi" və s. başlıqlı məqalələr yayımlanıb.

"Habertürk" qəzetində isə görüşlə bağlı materiallardan biri "İlham Əliyev-Prezident Ərdoğanın qonağı" başlığı ilə yayımlanıb. Vurğulanıb ki, hadisələrin bu minvalla davam etdiyi bir vaxtda qardaş Azərbaycandan bir jest də gəldi. Ərdoğanın Azərbaycan səfəri əsnasında keçirilməli olan Strateji Əməkdaşlıq Şurası Bakıda deyil, Ankarada həyata keçirildi. Görüş zamanı Türkiyə və Avropa İttifaqının Rusiyadan təbii qaz asılılığını azaldacaq TANAP-ın sürətləndirilməsi müzakirə edilib.

Bütün bunlar bir daha göstərir ki, Prezident İlham Əliyevin Türkiyə səfəri həm qardaş ölkədə, həm də dünyanın diqqət mərkəzində olmaqla yanaşı, Azərbaycanın hər zaman Türkiyənin yanında olacağını təsdiqləyən vacib hal kimi qiymətləndirilir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***